


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

30 aprel 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 16 (3779)


# Etibarlı dost, strateji tərəfdaş



## Azərbaycan mühüm diplomatik mərkəzə çevirilib

***Azərbaycan liderinin yürütdüyü balanslaşdırılmış və uzaqgörən xarici siyasət kursu hazırda ölkəmizi nəinki regionun aparıcı dövlətinə, həm də qlobal miqyasda strateji qərarların qəbul edildiyi, etibarlı tərəfdaşlıq körpülərinin qurulduğu mühüm diplomatik mərkəzə çevirib.***

Aprelin 26-da Çex Respublikasının Baş naziri Andrey Babişin Azərbaycana rəsmi səfəri bu strateji xəttin məntiqi davamı olmaqla yanaşı, Avropa ilə Cənubi Qafqaz arasında qurulan strateji dialoqun yeni keyfiyyət mərhələsinə qədəm qoyduğunu təsdiqlədi.

Çexiya Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdəndir. İki ölkə arasında diplomatik münasibətlər 1993-cü ilin yanvarında qurulub. 2015-ci il sentyabrın 15-də Bakıda "Azərbaycan Respublikası və Çex Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanıb. Bu ölkələr arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir.

Azərbaycan Çexiya ilə münasibətlərin inkişafına hər zaman əhəmiyyət verir. Eyni zamanda Çexiya Baş naziri Andrey Babişin Aİ hüdudlarından kənara ilk rəsmi səfərini məhz Azərbaycana etməsi rəsmi Praqanın Bakıya verdiyi strateji önəmin aydın təzahürü idi.

Prezident İlham Əliyev Azərbaycan-Çexiya biznes-forumunda bu mühüm məqama diqqət yetirərək vurğuladı ki, biz bunu dostluq, hörmət əlaməti kimi görürük və bu, həmçinin göstərir ki, həqiqətən hər iki ölkənin bir-birinə ehtiyacı var.

Aprelin 27-də Qəbələdə keçirilən görüşlər, mətbuata verilən bəyanatlar və birgə biznes-forum iki ölkə arasındakı münasibətlərin dərinliyini bir daha təsdiqlədi.

Prezident İlham Əliyev mətbuata bəyanatında ölkələrarası əlaqələrin dinamikasına diqqət çəkərək bildirib: **"Bizim indi çox fəal siyasi dialoqumuz var. Bu gün bir çox məsələlər - həm regional, həm ikitərəfli, həm də daha qlobal xarakter daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. İqtisadi sahədə görüləcək işlərlə bağlı konkret təkliflər var".**

Dövlətimizin başçısı onu da vurğulayıb ki, əməkdaşlığın böyük hissəsi energetika sektoruna aiddir, buna görə Azərbaycan tərəfi ticarət dövriyyəsində tarazlığın yaradılmasına ümid edir: **"Bizim çox böyük ümidimiz ondan ibarətdir ki, ticarət dövriyyəmizi daha da yüksək səviyyəyə qaldıraq. Halbuki bu gün də ticarət dövriyyəmiz əhəmiyyətli dərəcədə artmışdır, 800 milyon dollardan çoxdur. Amma əgər biz ticarət dövriyyəsinin strukturuna baxsaq görərik ki, burada da əsasən Azərbaycan neftinin ixracı gözə dəyir. Ona görə biz ticarət dövriyyəsinin daha tarazlı olmasını və strukturun təkmilləşdirilməsini arzulayırıq. Ümid edirəm ki, biz buna nail olacağıq".**

Baş nazir Andrey Babiş öz növbəsində mətbuata bəyanatında Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki əvəzsiz rolunu vurğulayaraq, ölkəmizi strateji müttəfiq kimi xarakterizə edib: **"Azərbaycan Çex Respublikasının strateji tərəfdaşıdır. Buna görə məmnunam ki, münasibətlərimiz də dostluğa söykənir".**

Bir sözlə, Baş nazirin ölkəmizə səfəri Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş, regionda isə əsas siyasi-iqtisadi mərkəz statusunu bir daha möhkəmləndirdi. Ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin ruhuna uyğun olaraq inkişaf edən bu münasibətlər şübhəsiz ki, hər iki xalqın rifahına xidmət edir.

# "Əməkdaşlığı dərinləşdirmək istəyirik"

## Prezidentlər niyyətlərini bəyan ediblər

Aprelin 25-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə təkbətək və geniş tərkibdə görüşü olub. Daha sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

Hərbi-texniki əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldığını deyən Azərbaycan Prezidenti başqa sahələrdə də əməkdaşlığı dərinləşdirmək istənildiyini bəyan edib.

# Dövlət başçısı naziri qəbul edib

## İkitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub

Prezident İlham Əliyev aprelin 28-də Qəbələdə Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Nazirliyinin Dövlət naziri Səid bin Mübarək Əl-Haciri-nin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli gündəliyin zəngin olduğu vurğulanıb, siyasi, iqtisadi, ticari, enerji, birgə hərbi təlimlər və digər məsələlərə dair fikir mübadiləsi aparılıb. Söhbət zamanı Yaxın Şərqdəki vəziyyətə də toxunulub.

# "Zorakılıq halları qəbuledilməzdir"

## Dövlətimizin başçısı media hesabında paylaşım edib

Vaşinqtonda keçirilən Ağ Ev Müxbirləri Assosiasiyasının şam yeməyində baş verən atışma məni dərindən sarsıtdı.

Bu barədə Prezident İlham Əliyev X sosial media hesabındakı paylaşımında bildirib.

"Belə zorakılıq halları qəbuledilməzdir və qəti şəkildə pislənməlidir. Prezident Trampın, birinci xanımın və bütün iştirakçıların təhlükəsiz olması sevindiricidir. Onlara davamlı təhlükəsizlik və rifah arzulayıram", - deyə dövlətimizin başçısı vurğulayıb.

# Prezident Sazişi təsdiqlədi

## Sürücülük vəsiqələri qarşılıqlı tanınacaq

Azərbaycan ilə Belarus arasında sürücülük vəsiqələri qarşılıqlı tanınacaq və dəyişdiriləcək.

Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Fərmana əsasən, 2026-cı il yanvarın 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş" təsdiqlənib.

# Nazir növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib

## Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 26-da Göyçay rayonunda növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Göyçay rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında Göyçay, İsmayıllı, Şamaxı, Ağdaş, Ucar, Qəbələ, Qobustan və Ağsu rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 226 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

*(Ardı 2-ci səhifədə)*

# Profilaktik tədbirlər genişləndirilir

## Sosial şəbəkələrin yaratdığı risklər və polisin müasir yanaşması

Müasir dövrdə yetkinlik yaşına çatmayanlar arasında hüquqpozmaların profilaktikası cəmiyyətin gələcəyi ilə bağlı strateji əhəmiyyət daşıyan mühüm məsələdir.

Bu sahədə səmərəli nəticələrin əldə olunması profilaktik fəaliyyətin sistemli, davamlı və real çağırışlara uyğun şəkildə təşkilini zəruri edir.

Aparılan təhlillər göstərir ki, yeniyetmələrə əsasən ailədaxili nəzarətin zəifləməsi, mənfi sosial mühit və xüsusilə sosial şəbəkələrdən qeyri-məhdud istifadə təsir edir.

*(Ardı 3-cü səhifədə)*


Hər bir zəng önəmlidir 2





Onlayn iş elanı, yoxsa tələ? 3





Narkotiklər həyat üçün real təhlükədir 4





Boksçularımızdan tarixi nailiyyət 4




# Daxili işlər naziri vətəndaş qəbulu və sıra baxışı keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər




Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 7-də İmişli rayonunda növbəti vətəndaş qəbulu və polis orqanları, o cümlədən daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək.

İmişli Rayon Polis Şöbəsinin inzibati binasında baş tutacaq qəbulda İmişli, Füzuli, Beyləqan, Xocavənd, Saatlı, Sabirabad və Kürdəmir rayonlarının sakinləri iştirak edə bilərlər.

Qəbula yazılmaq istəyən vətəndaşlar Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı 06.05.2026-cı il tarixinədək yaşadıqları ərazinin polis orqanına, habelə Nazirliyin "E-Polis" mobil tətbiqi, e-xidmet.mia.gov.az elektron xidmət portalı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı mayın 7-də 08:00-da İmişli Olimpiya İdman Kompleksində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Respublika Xəbərləri

### Veteranlara maddi yardım veriləcək

Prezident İlham Əliyev İkinci Dünya müharibəsi iştirakçılarına və digər imtiyazlı şəxslərə birdəfəlik maddi yardımın verilməsi haqqında sərəncam imzalayıb. Müharibə iştirakçılarına 2750 manat, digər kateqoriyalara isə 1500 manat ödəniləcək. Bunun üçün Prezidentin ehtiyat fondundan 3 milyon manat vəsait ayrılıb.

### Xocavəndlilərə yeni evlər verilib

Doğma yurduna aprelin 28-də yola salınan köç karvanı Xocavənd şəhərinə çatıb. Bu mərhələdə Xocavənd şəhərinə köçürülən 176 nəfərdən ibarət 39 ailəyə mənzillərin açarları təqdim edilib. Rayonun Xanoba kəndində isə 60 nəfərdən ibarət 13 ailəyə mənzillərin açarları təqdim edilib.

### Xankəndidə avtobus marşrutları açılıb

Xankəndi şəhərində üç yeni avtobus marşrutu fəaliyyətə başlayıb. Marşrutlar şəhərin əsas nöqtələrini birləşdirir. Hazırda sərnişinlərə "BakuBus" MMC-yə məxsus ekoloji təmiz elektrik avtobusları xidmət göstərir.

### Daimi yaşama ilə bağlı müraciətlər artıb

Bu ilin yanvar-mart aylarında Azərbaycanda daimi yaşama icazəsi almaq və ya mövcud icazəni uzatmaq üçün 1279 əcnəbi müraciət edib. Dövlət Miqrasiya Xidmətinin məlumatına görə, müraciət edənlər arasında əsasən Rusiya, Gürcüstan və Türkiyə vətəndaşları üstünlük təşkil edib.

### Laçında kanat yolu tikilir

Laçın şəhərində tikilən müasir kanat yolunun bu ilin sonuna qədər istifadəyə verilməsi planlaşdırılır. Uzunluğu 1720 metr, hündürlüyü 300 metr olacaq kanat yolu ilə hərəkət müddəti 6 dəqiqə təşkil edəcək. Saat ərzində 800 sərnişin daşımaq gücünə malik olacaq layihə Laçının turizm inkişafını daha da artıracaq.

### Qazilərə tibbi yardım davam etdirilir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, Vətən müharibəsindən sonra 276 qazi əvvəlki sağlamlığına qovuşub. Bundan başqa, 30 minə yaxın şəhid ailəsi üzvü və müharibə iştirakçısının məşğulluğu təmin edilib və 13,5 min şəxs özünüməşğulluq proqramına cəlb olunub.

# Nazir növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib

## Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub










*(Əvvəli 1-ci səhifədə)*

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri isə nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 230 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Hər bir zəng önəmlidir

## “102” Xidməti -Zəng Mərkəzi polislə vətəndaş arasında etibarlı körpüdür

Günün hansı saatında olursa olsun, təhlükə ilə üz-üzə qalan adamın ağlına ilk “102”-yə zəng edib kömək istəmək gəlir. “102” Xidməti-Zəng Mərkəzi bu ictimai etimadı yarandığı gündən bəri daxili işlər orqanlarının vətəndaşlarla operativ və fasiləsiz əlaqəsini təmin etməklə qazanıb.

Əbəs yerə polis sənə bir zəng qədər yaxındır deyilmir ki...

Gün ərzində Mərkəzə orta hesabla 13-14 min zəng daxil olur ki, bu, bir tərəfdən əməkdaşların gərgin iş rejimini, digər tərəfdən isə polisə bəslənən ictimai inamın rəqəmlərlə miqyasını özündə əks etdirir.



### Vətəndaş zəngi həyati əhəmiyyətlidir

Mərkəzin fəaliyyəti barədə danışan rəis müavini polis mayoru Şamxal Muradovun sözlərinə görə, cari ilin 1-ci rübü ərzində mərkəzə 950 min 467 zəng daxil olub, onların da 99 faizi cavablandırılıb. Yerdə qalan 1 faiz təsadüfi və ya zəng edib sonradan fikrindən daşınma kimi hallara aiddir. Ümumilikdə isə 330 min 913 müraciət qeydə alınaraq araşdırılması üçün aidiyyəti üzrə yönəldilib.

Onu da qeyd edək ki, Mərkəzin işi yalnız hüquq pozuntusu və cinayətlər barədə məlumatları qeydə alıb aidiyyəti polis orqanına yönəltməklə yekunlaşmır. İnsanlar “102”-yə müxtəlif mövzularla bağlı müraciət edirlər. Hətta vətəndaşlardan gələn zənglər mövsümə görə belə dəyişə bilir. Yaxın günlərin təcrübəsi də göstərdi ki, belə hallarda hadisə yerinə və köməksiz vəziyyətdə qalanların yanına ilk çatanların ön cərgəsində polis gəlir.

Bu, "102" Xidməti-Zəng Mərkəzi ilə inzibati ərazilərdəki polis orqanları arasında səmərəli, operativ koordinasiyalı fəaliyyətin bariz nümunəsidir. Bu isə onunla izah edilir ki, vətəndaşlardan gələn hər bir müraciət polis üçün çağırışdır, hər bir zəng vacibdir, hətta həyati əhəmiyyətlidir. Buna görə də “102”-yə üz tutan vətəndaşın xətdə gözləmə müddəti, adətən 1-2 saniyə çəkir. Sistem elə qurulub ki, operator avtomatik səsi, müraciəti eşidir.

Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi sorğular da göstərib ki, Daxili İşlər Nazirliyinin “102” xidməti müraciətləri ən operativ cavablandırması ilə seçilir, qurumlar arasında birinci yerdədir. Artıq 6-cı ildir ki, “102” bu liderliyini qoruyub saxlayır.

### Polisin hamı üçün əlçatan olması təmin edilib

Son illərdə bir çox sahədə olduğu kimi, “102” sistemində də texnoloji yeniliklər tətbiq olunur. Mərkəzə ənənəvi zənglərdən başqa, artıq vətəndaşlar “E-Polis” mobil tətbiqində müraciətini “Virtual 102” xidməti vasitəsilə audio, video və ya yazılı mətn şəklində asanlıqla göndərə bilir. Gələcəkdə yeni proqram təminatı ilə süni intellektin imkanlarından istifadə nəzərdə tutulur. Artıq bu layihənin üzərində işə başlanılıb. Üstəlik, polisə müraciətin alternativ üsulları da hazırda mövcuddur. Demək olar ki, bütün platformalarda Nazirliyin rəsmi sosial şəbəkə hesabları var, eləcə də “E-polis” tətbiqi ilə polisə birbaşa müraciət imkanları yaradılıb.

Bununla polisin hər kəs üçün artıq əlçatan olduğunu deyən müsahibimiz bildirir ki, bu vəziyyət “102”-yə daxil olan müraciətlərin sayına da təsirsiz ötüşməyib: “Biz özümüz də maraqlıyıq ki, insanla təmas olmadan müraciətlər birbaşa icraata yönəldilsin. Məsələn, bu ilin 3 ayı ərzində 809 müraciətdən 683-nü yazılı, qalanını səsli və foto-videolu müraciətlər təşkil edib”.

### “Operatorlar rus, ingilis, fransız və alman dillərini bilirlər...”

Hər nə qədər Mərkəzin fəaliyyəti avtomatlaşdırılmış olsa da, aydın məsələdir ki, bu sistemin arxasında polis əməkdaşlarının, operatorların olduqca böyük məsuliyyət tələb edən xidməti dayanır. Operatorların mütləq əksəriyyəti ali təhsillidir. Xidmətə qəbul edilərkən stresli vəziyyətdə davranışı, xarici dil biliyi, nitqi, kollektivdə işləmə bacarığı kimi meyarlar üzrə qiymətləndirilən əməkdaşlar xüsusi hazırlıq prosesindən sonra vətəndaşlardan gələn zəngləri qəbul etməyə buraxılır.

Hər bir zəngə həssas yanaşılan “102” xidmətində nəinki ölkə vətəndaşlarının, hətta əcnəbilərin, ölkəmizə gələn qonaqların da xətdə gözləməməsi əsas prinsiplərdən biri kimi müəyyən edilib. “Ölkəyə gələn əcnəbilər də müraciət edir, otel yeri soruşurlar, nəsə itirəndə zəng edirlər. “102” xidmətinin rus, ingilis, fransız və alman dili bilən operatorları var. Bu kimi hallarda qətiyyən çətinlik çəkmirik. Hətta ölkədə beynəlxalq tədbirlər keçiriləndə biz buna hazır olmaq məqsədi ilə xidmətə daha çox xarici dil bilən əməkdaşları cəlb edirik ki, gələn qonaq zəng edəndə xətdə gözləməsin. İndiyədək keçirilən beynəlxalq tədbirlərdə biz kənardan xarici dil biliyi olan mütəxəssis cəlb etməmişik, bütün müraciətləri bizim operatorlar cavablandırıb, kömək ediblər”, - deyə rəis müavini əlavə edir.

### “102” araşdırma aparan qurum deyil...

"102" Xidməti-Zəng Mərkəzinin funksional vəzifəsi hər nə qədər ölkə əhalisinə bəlli olsa da, bəzən vətəndaşlar sanki Mərkəzin vəzifəsinin zəngi qeydə alıb yerdəki polis orqanlarına ötürməklə məhdudlaşdığını qəbul etmirlər. Bəzi insanlar yanlış olaraq elə düşünür ki, “102” araşdırma aparır. Müsahibimiz deyir ki, bəzən vətəndaş zəng edib soruşur ki, “nə oldu, niyə siz gəlmədiniz?”, operatora israr edir ki, “özünüz gəlib araşdırın”. Hətta müraciətlər arasında təqaüd təyinatı, sosial məsələlərlə əlaqəli zənglərə belə rast gəlinir. Əlbəttə, bu zənglərə də operatorlar tərəfindən biganə yanaşılmır vətəndaşlar aidiyyəti üzrə yönəldilir, zəruri tövsiyələr edilir.

Ancaq, təbii ki, hər bir vətəndaşın bu xidmətdən yalnız düzgün və məsuliyyətli şəkildə istifadə etməsi ümumi təhlükəsizliyə mühüm töhfə verir.

*R.Mehtiyev*

# Profilaktik tədbirlər genişləndirilir

## Sosial şəbəkələrin yaratdığı risklər və polisin müasir yanaşması

*(Əvvəli 1-ci səhifədə)*

**Son illər sosial platformalar vasitəsilə zorakılığın, aqressiv davranışın və kiberbullinqin təşviqi yeniyetmələr üçün ciddi risk mənbəyinə çevrilib.**

Bu məsələlər Daxili İşlər Nazirliyində keçirilən sonuncu kollegiya iclasında da geniş müzakirə olunub, cəmiyyəti narahat edən problemlərin sistemli həlli məqsədilə konkret tapşırıqlar verilib. Burada əsas məqsəd yalnız baş vermiş hüquqpozmalara reaksiya vermək deyil, riskləri əvvəlcədən müəyyən edib aradan qaldırmaq, sağlam və təhlükəsiz sosial mühit formalaşdırmaqdır.

### Profilaktik tədbirlərin təşkili və tətbiqi

Yetkinlik yaşına çatmayanların hüquqazidd əməllərdən çəkindirilməsi məqsədilə profilaktik işin gücləndirilməsi, onların sosial şəbəkələrin zərərli təsirlərindən qorunması, təhsil müəssisələrində maarifləndirmə tədbirlərinin genişləndirilməsi, valideynlərlə müntəzəm izahat işinin aparılması və fərdi yanaşma əsasında risk qrupuna daxil olan yeniyetmələrlə işin təşkili başlıca istiqamətlər kimi müəyyən edilmişdir. Son 5 ildə polis əməkdaşları tərəfindən orta məktəblərdə 6000-ə yaxın görüş keçirilib. Görüşlərin əsas məqsədi narkomaniyanın zərərlərini, kibertəhlükələri, zorakılığın və erkən nikahın hüquqi məsuliyyəti barəsində yeniyetmələri maarifləndirməkdir. Bununla yanaşı, məktəblərin ətrafında ictimai asayişin qorunması və şagirdlərin təhlükəsiz gediş-gəlişinin təmin olunması da polisin gündəlik diqqət mərkəzindədir. Risk qrupuna daxil olan, aqressiv davranış nümayiş etdirən gənclərlə aparılan fərdi profilaktik işlər gələcəkdə daha ağır cinayətlərin qarşısını alan mühüm bir süzgəc rolunu oynayır. Müvafiq sahədə polis orqanlarının rolu yalnız cəza tədbirləri görməkdən ibarət deyil, polis həm də cəmiyyətdə təhlükəsiz davranış mühitinin formalaşdırılmasında və gənc nəslin düzgün istiqamətləndirilməsində əsas institutlardan biridir. Lakin effektiv nəticə üçün ailə, məktəb və polisin koordinasiyalı fəaliyyəti mütləqdir.

Valideynlərlə və müəllimlərlə müntəzəm izahat işinin aparılması gənclərin problemlərinin vaxtında aşkar edilməsinə və onlara lazımi psixoloji-sosial dəstəyin göstərilməsinə imkan yaradır. Bu yanaşma həm də cəmiyyətin polisə olan ictimai etimadı möhkəmləndirir.

Qeyd etmək lazımdır ki, bütün aidiyyəti qurumların, hər bir valideynin və bütövlükdə cəmiyyətin birgə, əlaqəli və məsuliyyətli fəaliyyəti ilə sağlam gələcək inşa etmək mümkündür. Hər bir qabaqlayıcı tədbir bir gəncin gələcəyini, bir gəncin gələcəyi isə cəmiyyətin asayişini qorumaq deməkdir.

# Oğruya fürsəti kim yaradır?

## Şəxsi əmlakı qorumaq üçün sadə tövsiyələr

Oğurluq halları cəmiyyətdə teztez rast gəlinən hüquqpozmalardan biridir. Belə cinayətlərin qarşısının alınması məqsədilə polis əməkdaşları mütəmadi olaraq profilaktik tədbirlər həyata keçirir, vətəndaşlarla maarifləndirici söhbətlər aparır, onları diqqətli olmağa, əmlaklarını qorumağa və təhlükəsizlik qaydalarına əməl etməyə çağırırlar. Lakin unutmaq olmaz ki, əmlakın təhlükəsizliyi ilk növbədə onun sahibinin məsuliyyətindən başlayır.

Bir neçə gün əvvəl paytaxtda baş verən oğurluq hadisələrindən biri də məhz vətəndaşın səhlənkarlığı nəticəsində törədilib. Ev sahibi mənzilin açarını su sayğacının üzərinə qoyaraq evdən çıxıb. Bu isə cinayətkarlar üçün əlverişli şərait yaradıb. Onlar sayğacları yoxlayaraq açarı tapıb, mənzilə daxil olaraq oğurluq ediblər. Bu bir daha göstərir ki, bəzən sadə görünən diqqətsizlik ağır nəticələrə səbəb olur. Cinayətkarların fürsət axtardığı bir vaxtda vətəndaşın səhlənkarlığı onlara bu imkanı yaradır.



### Təhlükəsizlik qaydalarına necə əməl edilməlidir?

Hər bir vətəndaş bilməlidir ki, əmlakının qorunması ilk növbədə onun öz əlindədir. Açarı hər kəs üçün əlçatan yerlərdə saxlamaq, qiymətli əşyaları nəzarətsiz qoymaq, avtomobili və ya digər nəqliyyat vasitələrini mühafizəsiz buraxmaq oğruya şərait yaratmaq deməkdir. Polis əməkdaşları mütəmadi olaraq vətəndaşlara təhlükəsizlik qaydalarını izah edir və diqqətli olmağın vacibliyini xatırladır. Həmçinin əmlakını daha etibarlı qorumaq istəyən vətəndaşlar Baş Mühafizə İdarəsi ilə müqavilə bağlayaraq mənzil və ya obyektlərinin peşəkar mühafizəsini təmin edirlər. Bu, oğurluq riskini minimuma endirən ən etibarlı vasitələrdən biridir. Əgər vətəndaş bu xidmətdən istifadə etmirsə, o zaman öz təhlükəsizliyinə daha ciddi yanaşmalı, cinayətkar üçün əlverişli şərait yaratmamalıdır. Evdən çıxarkən qapı və pəncərələrin bağlı olduğuna əmin olmaq, mənzilin açarını girişdə və ya digər əlçatan yerlərdə saxlamamaq, qapıda bir neçə etibarlı kiliddən istifadə etmək vacibdir.

Avtomobil və digər nəqliyyat vasitələri park edilərkən mütləq kilidlənməli, salon daxilində qiymətli əşyalar görünən yerdə qoyulmamalıdır. İctimai yerlərdə, nəqliyyatda və insanların sıx olduğu məkanlarda şəxsi əşyalara daim nəzarət olunmalıdır.

Sözsüz ki, polis belə halların üstünün qısa zamanda açılmasını təmin edir və oğurluq əməli törədən şəxslər qanun qarşısında məsuliyyətə cəlb olunur. Lakin vətəndaşlar daha diqqətli və məsuliyyətli olduqda, bu cür cinayətlərin sayı azalır, polis əməkdaşları isə öz qüvvələrini daha ağır və ictimai təhlükəli cinayətlərlə mübarizəyə yönəldə bilərlər.

Şəxsi əmlakın təhlükəsizliyi polis qapını döyəndə deyil, vətəndaş qapını bağlayanda başlayır. Əmlakımızı qorumaqla həm özümüzü qorumuş, həm də cinayətkarların planlarını pozmuş oluruq.

*F.Məmmədova*

# Onlayn iş elanı, yoxsa tələ?

## Saxta vədlərlə qurbanlar cəlb edilir




Müasir dövrdə insan alveri qlobal miqyasda ən təhlükəli transmilli cinayətlərdən biri olaraq qalmaqda davam edir. Son günlərdə Daxili İşlər Nazirliyi İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin həyata keçirdiyi əməliyyatlar bu problemin aktuallığını bir daha gündəmə gətirib. Xüsusilə saxta iş elanları vasitəsilə insanların aldadılması halları artaraq insan alverçilərinin əsas üsullarından birinə çevrilib.

İnsan alverinə qarşı effektiv mübarizə yalnız polis əməkdaşlarının əməliyyat tədbirləri ilə məhdudlaşmamalı, həmçinin qeyd olunan problemin həlli kompleks və sistemli yanaşma tələb edir. Bu cinayət növü daim yenilənən üsullarla fəaliyyət göstərir və cəmiyyət üçün ciddi təhlükə olaraq qalır.

Hazırda ölkədə insan alveri qurbanlarının müdafiəsi istiqamətində müəyyən institusional mexanizmlər – sığınacaqlar, psixoloji və hüquqi yardım xidmətləri mövcuddur. Lakin bu mexanizmlərin effektivliyi və əhatə dairəsinin genişləndirilməsinə ehtiyac var. Xüsusilə qurbanların uzunmüddətli reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üçün məşğulluq imkanlarının yaradılması, peşə hazırlığı proqramlarının təşkili və sosial adaptasiya tədbirlərinin gücləndirilməsi vacib hesab olunur.

Müasir dövrdə insan alverçiləri daha çox sosial şəbəkələr, onlayn iş elanları və müxtəlif vasitəçi platformalar üzərindən fəaliyyət göstərirlər. Bu platformalar həm potensial qurbanların cəlb olunması, həm də cinayətkarların anonimliyinin qorunması üçün əlverişli şərait yaradır. Bu səbəbdən rəqəmsal mühitdə nəzarətin gücləndirilməsi, platforma sahibləri üçün hüquqi öhdəliklərin artırılması və şübhəli elanların avtomatik aşkarlanması üçün texnoloji alətlərin tətbiqi əsas prioritetlərdən biri kimi qiymətləndirilir.

İnsan alverinin ən geniş yayılmış formalarından biri məhz saxta iş vədləri ilə bağlıdır. Bu halların qarşısını almaq üçün işə düzəltmə agentliklərinin etibarlılığı iş axtaranların diqqət yetirməli olduğu məsələlərdəndir.

Buna görə maarifləndirmə tədbirləri polisin insan alverinə qarşı mübarizədə əsas vasitələrindən biridir. Sosial şəbəkələrdə və televiziya kanallarında məlumatlandırıcı materialların yayılması, təhsil müəssisələrində və icmalarda maarifləndirici tədbirlərin təşkili, bu mövzuda sosial çarxların hazırlanması cəmiyyətin həssaslığının artırılmasına xidmət edir.

Eyni zamanda ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi, vətəndaşların şübhəli halları operativ şəkildə aidiyyəti qurumlara bildirməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə fəaliyyət göstərən "152" qaynar xətti vətəndaşların müraciətləri üçün əlçatan və effektiv vasitə kimi çıxış edir.

Nəticə etibarilə deyə bilərik ki, insan alverinə qarşı mübarizədə polis, digər dövlət qurumları, vətəndaş cəmiyyəti və medianın koordinasiyalı fəaliyyəti bu təhlükəli cinayətin qarşısının alınmasında həlledici rol oynayır.

# Piyadalar maarifləndirilir

## Qaydanı pozan həm özünü, həm də başqasını təhlükəyə atır



Özünün və başqalarının həyatına real təhlükə yaradan piyadalara qarşı profilaktik tədbir keçirilir.

Qanunvericiliyin tələblərinə əsasən piyadalar avtomobil yolunu yeraltı və yerüstü keçidlərlə, bunlar olmadıqda isə yolayrıclarında səki xətti və ya yol çiyni xətləri boyunca keçməlidirlər.

Yol polisinin paytaxt ərazisində keçirdiyi profilaktik tədbir zamanı nəqliyyat vasitəsinin qarşısına qəflətən çıxan piyadalar müəyyən olunub və onlarla maarifləndirici söhbətlər aparılıb.

Polis bir daha bütün hərəkət iştirakçılarının diqqətinə çatdırır ki, qaydalara əməl edən piyada həm özünü, həm də başqalarının həyatını təhlükələrdən qoruyur.

Gəncə şəhərinin 10 saylı tam orta məktəbində keçirilən maarifləndirici görüş də yol hərəkətinin təhlükəsizliyinə həsr olunub. Gəncə Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşlarının təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən polis əməkdaşları uşaqlara piyadaların yol hərəkətində davranış qaydaları, yolun müəyyən edilmiş yerlərdən keçilməsinin vacibliyi, işıqfor siqnallarına düzgün əməl olunması, eləcə də təhlükəsizlik kəmərlərinin əhəmiyyəti barədə izahlar veriblər. Həmçinin valideynlərin də bu məsələdə məsuliyyətli olmasının önəmi vurğulanıb.

# Narkotacirlərə zərbə

## Külli miqdarda narkotik vasitə dövriyyədən çıxarılıb

DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə əməliyyatlar davam etdirilir.

Növbəti tədbirlər zamanı saxlanılan 35 yaşlı Allahşükür İsmayılzadədən 34 kiloqram 875 qram, əvvəllər məhkum olunmuş 29 yaşlı Ceyhun Sultanovdan isə 14 kiloqram 700 qram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana aşkarlanıb. Saxlanılan şəxslərin narkotikləri satmaq məqsədilə əldə etdikləri müəyyən olunub.

Faktlarla bağlı cinayət işləri başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Bir oğru, doqquz fakt

## Məhkəmənin qərarı ilə həbs olunub

Xəzər rayonunun Binə qəsəbəsində yerləşən 9 mənzildən müxtəlif vaxtlarda pul və qızıl-zinət əşyaları oğurlanıb. Xəzər Rayon Polis İdarəsinin 3-cü Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə əməlləri törətməkdə təqsirli bilinən 46 yaşlı Məzahir Əliyev müəyyən olunaraq saxlanılıb.

Həmin şəxsdən oğurladığı əşyaların bir qismi aşkar olunaraq maddi sübut kimi götürülüb.

Faktlarla bağlı cinayət işi başlanılıb. Saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Avtomobil qaçıranın aqibəti...

## Polis onu şübhəli şəxs qismində saxlayıb



Paytaxtın Nizami rayonu ərazisində yerləşən avtoyuma məntəqələrindən birindən gecə saatlarında "Range Rover" markalı nəqliyyat vasitəsi qaçırılıb.

Polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, həmin məntəqədə çalışan 23 yaşlı R.Rzayev müəyyən edilərək saxlanılıb.

Qeyd edək ki, həmin şəxs sərxoş halda idarə edərək qaçırdığı avtomobillə yol-nəqliyyat hadisəsi də törədib.

Araşdırma aparılır.

# Narkotiklər həyat üçün real təhlükədir

## Asılılığın açdığı yaralar gələcəyimiz üçün ciddi təhdiddir

**Müasir dövrdə narkotik vasitələrin yayılması və onun insan həyatına vurduğu dağıdıcı təsirlər cəmiyyət üçün ciddi narahatlıq doğurur. Bu problem təkcə hüquq-mühafizə orqanlarının deyil, hər bir ailənin, hər bir vətəndaşın diqqət mərkəzində olmalıdır. Çünki narkotiklər insanın həyatını tədricən məhv edən, lakin başlanğıcda çox vaxt adi və zərərsiz görünən təhlükəli bir vərdişdir. Məhz sadalanan səbəblərdən bu mövzu barədə maarifləndirmə işi xüsusi əhəmiyyət daşıyır.**

### Addım-addım ölümə aparır...

Narkotik vasitələrin insan orqanizminə təsiri olduqca ağır və çoxşaxəlidir. Bu maddələr ilk növbədə beyin fəaliyyətini pozur, insanın düşünmə qabiliyyətini zəiflədir və psixoloji tarazlığı sarsıdır. Zaman keçdikcə yaddaş zəifləyir, diqqət dağılır və insan öz gündəlik həyatını idarə etməkdə çətinlik çəkir. Bundan əlavə, ürək-damar sistemi, qaraciyər və sinir sistemi ciddi zədələr alır, bir çox hallarda isə bu proses sağalmaz xəstəliklərə və ölümə gətirib çıxarır. Ən təhlükəlisi isə odur ki, insan özündə baş verən bu dəyişikliklərin fərqinə varanda artıq gec olur.

### Asılılıq həyatın dağılmasıdır

Narkotiklərin ən təhlükəli xüsusiyyətlərindən biri də güclü asılılıq yaratmasıdır. İnsan bir müddət sonra artıq öz istəyinə görə deyil, maddənin təsiri və tələbi ilə hərəkət etməyə başlayır. Bu vəziyyətdə iradə zəifləyir, qərarvermə qabiliyyəti itir və insan öz həyatına nəzarət edə bilmir. Nəticədə iş, təhsil və şəxsi həyat arxa plana keçir, bütün diqqət yalnız həmin maddənin əldə edilməsinə yönəlir. Bu isə insanın həm sosial statusunu, həm də həyat keyfiyyətini tamamilə məhv edir.

### Ailə bağları qırılır, təcrid başlayır

Narkotik asılılığı ailə mühitini də dərindən sarsıdır. Belə hallarda ailə üzvləri arasında etibar azalır, münasibətlər gərginləşir və çox vaxt tamamilə pozulur. İnsan öz yaxınlarından uzaqlaşır, sosial çevrəsini itirir və tədricən tənhalığa sürüklənir. Bu proses uzun müddət davam etdikdə, fərd cəmiyyət-



lə əlaqəsini tamamilə itirir və sosial izolasiya vəziyyətinə düşür. Nəticədə isə onun normal həyata qayıtması mümkünsüz olur.

### Cinayətkarlığa sürüklənmə riski

Narkotik asılılığı çox vaxt insanı maddi çətinliklər qarşısında qoyur və bu da sonda onu qanunsuz yollara əl atmağa vadar edir. Belə hallarda oğurluq, dələduzluq və digər qanun pozuntularına meyl artır. Bu isə bütövlükdə cəmiyyətin təhlükəsizliyi üçün ciddi risk yaradır. Eyni zamanda, narkotiklərin qanunsuz dövriyyəsi də cinayətkar şəbəkələrin güclənməsinə şərait yaradır və bu problem daha geniş miqyas alır.

### Gəncləri qorumaq gələcəyi qorumaqdır

Gənclər narkotik vasitələrin təsirinə daha tez məruz qala bilən həssas qrupdur. Marağından və ya yanlış çevrənin təsiri ilə atılan kiçik bir addım gələcəkdə böyük faciələrə səbəb ola bilər. Buna görə də gənclərin maarifləndirilməsi, onların sağlam həyat tərzinə yönləndirilməsi və düzgün seçim etmələri üçün dəstək göstərilməsi çox vacibdir. İdmanla məşğul olmaq, təhsil almaq və faydalı vərdişlər qazanmaq bu riskdən uzaq qalmağın ən doğru yoludur.

Narkotiklər insan həyatını tədricən məhv edən təhlükəli bir vərdişdir. Onlardan uzaq durmaq təkcə sağlamlıq üçün deyil, həm də gələcək nəslib üçün əsas şərtlərdəndir. Cəmiyyətin hər bir üzvü bu təhlükənin fərqinə varmalı və sağlam gələcək naminə seçimini düzgün etməlidir.

*Aytən Tahirova*

# Hadisə yeri cinayətin açarıdır

## Bəzi böyük cinayətlərin üstü kiçik sübutlarla açılır



Cinayət hadisəsinin baş verdiyi ərazi hüquq-mühafizə orqanları tərəfindən təsadüfi olaraq nəzarətə götürülmür. Hadisə yerində qalan hər bir iz, ən xırda detal və diqqətdən qaçan ən kiçik əşya belə istintaq üçün mühüm əhəmiyyət daşıyır. Bəzən bir barmaq izi, ayaqqabı izi, qan ləkəsi və ya unudulmuş predmet mürəkkəb görünən cinayətin qısa zamanda açılmasına səbəb olur. Kriminalistika tarixində bununla bağlı çoxsaylı nümunələr mövcuddur. Dünyada böyük rezonans doğurmuş bir sıra hadisələrin üstü məhz belə sübutlar sayəsində açılıb.

### Cinayətkar qardaşları barmaq izi ələ verdi

1905-ci ildə Londonun Deptford bölgəsində yaşlı Tomas və Enn Farrou evlərində amansız hücuma məruz qaldılar. Tomas Farrou hadisə yerində öldü, həyat yoldaşı isə bir neçə gün sonra vəfat etdi. Evdən pul qabı oğurlanmışdı. Polis oğurlanmış pul qabının üzərində qalan barmaq izini araşdırdı və həmin iz Alfred Strattona aid çıxdı. Qardaşı Albertlə birlikdə həbs olunan Alfred məhkəmədə təqsirli bilindi. Bu iş Böyük Britaniyada barmaq izi sübutu ilə həll olunan ilk məşhur qətl hadisəsi kimi tarixə düşdü.

### Məhkəmədə əsas sübut: barmaq izi

1910-cu ildə Çikaqoda Klarens Hiller gecə evinə girən oğru ilə mübarizə apararkən öldürüldü. Qaçan şəxs pəncərədən çıxarkən təzə boyanmış səthdə əl izini qoymuşdu. Polis həmin izi Tomas Jenninqs adlı şəxslə uyğunlaşdırdı. Məhkəmə barmaq izini rəsmi sübut kimi qəbul etdi və Jenninqs məhkum olundu. Bu hadisə ABŞ hüquq tarixində ilk böyük barmaq izi hökmü kimi tanınır.

### DNT ilə açılan ilk məşhur cinayət

1980-ci illərdə İngiltərədə iki yeniyetmə qızın qətli ölkədə böyük rezonans doğurmuşdu. İlk araşdırmalarda yanlış şəxs saxlanılsa da, sonradan DNT analizi tətbiq edildi. Minlərlə şəxsdən nümunə götürüldü və nəticədə Colin Piçfork adlı şəxsin cinayətkar olduğu sübut olundu. Bu hadisə dünya tarixində DNT vasitəsilə açılan ilk məşhur qətl hadisəsi sayılır.

### Həqiqəti qan izləri üzə çıxardı

1954-cü ildə ABŞ-də həkim Sem Şeppardın həyat yoldaşı evində qətlə yetirildi. İlk mərhələdə Şeppard özü günahkar sayıldı və həbs edildi. Lakin illər sonra yenidən aparılan araşdırmalar zamanı hadisə yerindəki qan izləri və ekspertiza nəticələri əvvəlki versiyanı təkzib etdi. Müasir analizlər göstərdi ki, cinayətdə başqa şəxsin iştirakı ehtimalı daha güclüdür. İş sonradan ABŞ tarixində ən məşhur ədalət səhvlərindən biri kimi tanındı.

### Taxta nərdivan əsas sübuta necə çevrildi?

1932-ci ildə məşhur pilot Çarlz Lindberqin körpəsi qaçırıldı və hadisə bütün Amerikanı sarsıtdı. Uşağın aparılması üçün istifadə olunan taxta nərdivan hadisə yerində qalmışdı. Ekspertlər nərdivandakı taxta hissələrini araşdıraraq onların Bruno Hauptman adlı şəxsin evindəki materiallarla eyni olduğunu müəyyən etdilər. Bu sübut işin açılmasında əsas rol oynadı və şübhəli həbs edildi.

### Zirzəmidə tapılan qalıqlar sirri açdı

1910-cu ildə Londonda Doktor Krippenin həyat yoldaşı qəfil yoxa çıxdı. Krippen onun ölkəni tərk etdiyini bildirsə də, polis şübhələndi. Evdə aparılan axtarış zamanı zirzəmidə insan qalıqları aşkar olundu. Tibbi ekspertiza nəticəsində həmin qalıqların həyat yoldaşına aid olduğu müəyyən edildi. Krippen qaçmağa çalışsa da tutuldu və məhkum edildi. Bu iş dövrünün ən məşhur cinayət hadisələrindən biri idi.

### Qatili tibbi metodlar tapdı

1935-ci ildə Şotlandiyada çayın yaxınlığında parçalanmış insan qalıqları tapıldı. Şəxsiyyəti müəyyən etmək mümkün deyildi. Ekspertlər sümük quruluşu, üz cizgiləri və tibbi metodlarla qalıqların kimə məxsus olduğunu müəyyən etdilər. Araşdırma nəticəsində həkim Bak Rukston saxlanıldı və cinayət sübuta yetirildi. Bu iş məhkəmə tibbi ekspertizasının inkişafında mühüm hadisə hesab olunur.

Bu faktlar göstərir ki, cinayət işində hər bir detal əhəmiyyətlidir. Bəzən bir əl izi, taxta parçası, qan ləkəsi və ya unudulmuş predmet ən ağır cinayətin açılmasına gətirib çıxarır. Buna görə hadisə yerinin qorunması və sübutların düzgün toplanması istintaqın ən vacib mərhələsidir. Həqiqət çox vaxt məhz ən xırda detallarda belə gizlənir.

*Aytən Tahirova*

# Yarışlar davam edir

## Çempionata ciddi hazırlıq gedir



Polis əməkdaşları arasında əlbəyaxa döyüş və silahsız özünü müdafiə üzrə yarışlar davam edir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan yarışlar respublika çempionatına hazırlıq məqsədi daşıyır.

Bakı şəhərində 12, bölgələrdə isə daha 42 rayonda yarışlar keçirilib. Mayın 1-dən etibarən bölgələrdə zona yarışlarına start veriləcək. Yarışlar Naxçıvan, Bakı, Sumqayıt, Gəncə, Qəbələ və Yardımlı zonaları üzrə davam edəcək.

Zona yarışları başa çatdıqdan sonra mayın sonlarında respublika çempionatı təşkil olunacaq.

Qeyd edək ki, DİN-in İdman Cəmiyyəti tərəfindən daxili işlər orqanlarının aidiyyəti xidmət əməkdaşları üçün fiziki hazırlıq və silahsız özünü müdafiə üzrə təlim toplanışları da davam etdirilir.

Aprel ayı ərzində Bakı, Lənkəran, Gəncə, Qəbələ və Xaçmaz rayonlarında əməliyyat xidməti əməkdaşları ilə seminarlar keçirilib. Təlim toplanışına mayın 3-də Naxçıvanda yekun vurulacaq.

# Boksçularımızdan tarixi nailiyyət

## DİN İdman Cəmiyyətinin yetirməsi Vətənə qızıl medalla dönüb




Azərbaycanın boks millisi Braziliyanın Fos-du-İquasu şəhərində 49 ölkədən 400 idmançının qatıldığı beynəlxalq yarışda tarixi nəticəyə imza atıb. Komandamız Dünya kubokunda ilk dəfə 3 qızıl və 1 bürünc medal qazanıb.

Finalda DİN İdman Cəmiyyətinin yetirməsi Sübhan Məmmədov (50 kq) İssam Bensayarla (Mərakeş) döyüşüb. Hər 3 raundu xeyrinə bitirən boksçumuz yekunda 5:0 hesabı ilə qələbə qazanıb və qızıl medala yiyələnib.

Onun ardınca Məhəmməd Abdullayev (+90 kq) həlledici görüşdə Davit Çaloyana (Ermənistan) gücünü göstərib. Rəqibini 3:2 hesabı ilə məğlub edərək qızıl medal qazanıb. Millimizin heyətində final mərhələsinin ilk sessiyasında Səidcəmşid Cəfərov (75 kq) Dünya kubokunun qalibi olub, daha öncə isə Nəbi İsgəndərov (70 kq) bürünc medala yiyələnib.

Beləliklə, boksçularımız vətənə 3 qızıl və 1 bürünc medalla dönüblər.

# Təhlükəsizlik cəmiyyətin dayağıdır

## Bu dəyərin qorunması ortaq vəzifədir

Cəmiyyətin təhlükəsizliyi, insanların hüquq və azadlıqlarının qorunması qanunun aliliyinə və polis əməkdaşlarının məsuliyyətli xidmətinə söykənir. Ədalət, nizam-intizam və sabitliyin bərqərar olması üçün hər bir vətəndaş qanuna hörmətlə yanaşmalıdır. Bu baxımdan polis xidməti yalnız peşə deyil, həm də böyük etimad və məsuliyyət missiyasıdır.

Təsadüfi deyil ki, "Qanunun gücü onun ədalətli tətbiqindədir" deyilir. Həmçinin "Polis cəmiyyətin təhlükəsizliyinin sipəridir" fikri bu peşənin əhəmiyyətini aydın şəkildə ifadə edir. "Qanuna hörmət, dövlətə hörmətdir" kəlamı isə hər bir vətəndaş üçün mühüm çağırışdır.

Unutmaq olmaz ki, "Polis yalnız qaydanı deyil, inamı da qoruyur". Çünki təhlükəsizlik təsadüf deyil, məsuliyyət nəticəsidir. Hər bir cəmiyyətdə sabitliyin və inkişafın əsas şərtlərindən biri qanunun aliliyi və hüquq-mühafizə orqanlarına olan inamdır. Bu dəyərlərin qorunması isə hər kəsin ortaq vəzifəsidir.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik